Təhsil Nazirliyinin "Bizim müəllim" layihəsi davam edir. Layihənin budəfəki təqdimatı Aytəkin Ağayevaya həsr olunub.

O, 2016-cı ildə müəllimlərin işə qəbulu üzrə müsabiqədən uğurla keçərək 47 bal toplayıb və həmin il Quba rayon ?lik kənd ümumi orta məktəbində pedaqoji fəaliyyətə başlayıb. 2019-cu ildə isə müəllimlərin yerdəyişməsi üzrə müsabiqədə iştirak edib. Hazırda Şabran rayon Gəndov kənd tam orta məktəbində Azərbaycan dili və ədəbiyyat fənnini tədris edir.

Aytəkin Ağayeva deyir ki, şagirdlərlə işləmək, onlara bilik öyrətməkdən zövq alır və müəllim adını qazandığı üçün çox xoşbəxtdir. Aytəkin Ağayevanın sözlərinə görə, müəllim peşəsi ona görə dəyərlidir ki, onlar vətəndaşların cəmiyyətə yararlı olması və layiqli yer tutması üçün çalışır, gələcəyin peşə sahiblərini yetişdirirlər.

Təhsil Nazirliyinin "Bizim müəllim" layihəsi ölkəmizin bütün bölgələrində peşəkarlığı ilə seçilən, müəllimlərin işə qəbulu üzrə müsabiqədə və diaqnostik qiymətləndirmədə yüksək bal toplayan müəllimlərin tanıdılmasına xidmət edir.